## *Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun* fəaliyyətinin təmin edilməsi haqqında[i]

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

~~1. "Azərbaycan Respublikasının Kredit Zəmanət Fondu" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi təsdiq edilsin (Əlavə 1).~~ [ii]

~~2. "Azərbaycan Respublikasının Kredit Zəmanət Fondu" Açıq Səhmdar Cəmiyyətinin strukturu" təsdiq edilsin (Əlavə 2).~~

3. "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası" təsdiq edilsin (Əlavə 3).

4. "*Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunda* kredit reytinqi sisteminin və digər risk menecmenti alətlərinin tətbiqi Qaydası" təsdiq edilsin (Əlavə 4).

5. "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə hesablanmış faizlərə görə subsidiya verilməsi Qaydası" təsdiq edilsin (Əlavə 5).

6. Müəyyən edilsin ki, subsidiya sahibkarlar tərəfindən 2018-ci il yanvarın 1-dən *2024-cü il* dekabrın 31-dək banklardan manatla alınan kreditlərə hesablanmış faizlərə görə verilir.[iii]

7. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

7.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

7.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

7.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

7.4. *Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun* nizamnamə kapitalının formalaşdırılmasını bir ay müddətində təmin etsin;

7.5. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

8. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələləri həll etsin.

9. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 noyabr 2017-ci il
№ 1691

[i] 25 dekabr 2017-ci il tarixli **1762** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 27 dekabr 2017-ci il, № 287, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab, maddə 2330)** ilə adında, 4-cü hissəsində və 7.4-cü bəndində ismin müvafiq hallarında "**Azərbaycan Respublikasının Kredit Zəmanət Fondu" Açıq Səhmdar Cəmiyyəti**" sözləri ismin müvafiq hallarında "**Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu**" sözləri ilə əvəz edilmişdir.

[ii] 25 dekabr 2017-ci il tarixli **1762** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 27 dekabr 2017-ci il, № 287, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab, maddə 2330)** ilə 1-ci və 2-ci hissələr ləğv edilmişdir.

[iii] 25 dekabr 2018-ci il tarixli **435** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 27 dekabr 2018-ci il, № 293, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 12, I kitab, maddə 2592)** ilə 6-cı hissəyə "**yanvarın 1-dən**" sözlərindən sonra "**2019-cu il**" sözləri əlavə edilmişdir.

16 dekabr 2019-cu il tarixli **880** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 17 dekabr 2019-cu il, № 280, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 12, maddə 1923)** ilə 6-cı hissədə "**2019-cu**" sözləri "**2020-ci**" sözləri ilə əvəz edilmişdir.

21 sentyabr 2021-ci il tarixli **1446** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 22 sentyabr 2021-ci il, № 202, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 9, maddə 986)** ilə 6-cı hissədə "**2020-ci**" sözləri "**2022-ci**" sözləri ilə əvəz edilmişdir.

26 yanvar 2023-cü il tarixli **2002** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 26 yanvar 2023-cü il, "Xalq" qəzeti, 27 yanvar 2023-cü il, № 18, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 1, maddə 90)** ilə 6-cı hissədə "**2022-ci**" sözləri "**2024-cü**" sözləri ilə əvəz edilmişdir.